# Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupları üçün 2017-2018-ci dərs ilinə aid tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikasının dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarının 2017-2018-ci dərs ilinə aid tədris (məşğələ) planı və tədris (məşğələ) planına dair "Qeydlər" təsdiq edilsin (1 və 2 nömrəli əlavələr).

**2.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) həmin tədris (məşğələ) planının vaxtında yerlərə çatdırılmasını, İnformasiya şöbəsi (E.Əliyev) əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*4 iyul 2017-ci il*

*Azərbaycan Respublikası təhsil nazirinin*
*04.07.2017-ci il tarixli, 184 nömrəli əmrinə 1 nömrəli əlavə*

### Dövlət ümumtəhsil məktəbinin məktəbəhazırlıq qrupu üçün tədris (məşğələ) planı

| № | Dərs məşğələləri | Həftəlik məşğələ saatlarının miqdarı |
|---|---|---|
| 1 | Ətraf aləmlə tanışlıq | 1 |
| 2 | Savad təliminə hazırlıq və nitq inkişafı | 2 |
| 3 | Bədii təfəkkürün inkişafı | 1 |
| 4 | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 |
| 5 | Təsviri fəaliyyət | 2 |
| 6 | Musiqi | 2 |
| 7 | Fiziki mədəniyyət | 2 |
| | **Cəmi:** | **12** |

*Azərbaycan Respublikası təhsil nazirinin*
*04.07.2017-ci il tarixli, 184 nömrəli əmrinə 2 nömrəli əlavə*

# Tədris (məşğələ) planına dair qeydlər

**1.** Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olan uşaqlar qəbul edilirlər.

**2.** Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:
- qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 10 uşaq;
- şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 15 uşaq.

**3.** Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.

**4.** Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayır və mayın 31-də başa çatır.

**5.** Məktəbəhazırlıq məşğələləri həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur.

**6.** Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.

**7.** Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları nəzərdə tutulmur.

**8.** Məktəbəhazırlıq qruplarında məşğələlərə davamiyyət və tədris olunan mövzu müvafiq sinif jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.

**9.** Məktəbəhazırlıq qruplarında məşğələlər yalnız ibtidai sinif müəllimi ixtisaslı və müəyyən iş təcrübəsinə malik müəllim tərəfindən aparılır.

**10.** Məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür:
- I yarımil: 1 oktyabr-26 yanvar;
- II yarımil: 1 fevral-31 may.

**11.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:
- 5 gün payız tətili (16-20 noyabr);
- 5 gün qış tətili (27-31 yanvar);
- 5 gün əlavə tətil (1-5 may).